# Ombudsmanların XIII beynəlxalq konfransı keçirilmişdir

Noyabrın 12—13-də Bakıda Ombudsmanların XIII konfransı keçirilmişdir. «Konstitusion hüquq və azadlıqların təmin olunmasında ölkədaxili və beynəlxalq təşkilatların əməkdaşlığının rolu» mövzusunda keçirilən konfrans Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 20 illiyinə, BMT-nin və UNESCO-nun yaranmasının 70-ci ildönümünə həsr edilib.

UNESCO-nun dəstəyi ilə təşkil olunan konfransda Avrova, Asiya və Afrikanın 10-dan çox ölkəsindən ombudsmanlar və onların nümayəndələri insan hüquqları sahəsində beynəlxaplq ekspertlər, nüfuzlu beynəlxalq təşkilatların təmsilciləri, tanınmış hüquqşünas alimlər iştirak etmişlər.

Konfransı Azərbaycanın insan hüquqldarı üzrə müvəkkili (ombudsman) Elmira Süleymanova açmışdır. Qeyd edək ki, Bakıda hər il ombudsmanların beynəlxalq konfransının keçirilməsi artıq bir ənənəyə çevrilmişdir.

E. Süleymanova konfransın açılışından sonra çıxışında qeyd etmişdir ki, Konstitusiya statuslu institut olmaqla ombudsman təsisatının fəaliyyəti əsas qanunla tənzimlənir. Heydər Əliyevin müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyasının referendum yolu ilə qəbul edilməsi müstəqil dövlətimizin hyatında böyük dönüş nöqtəsi oldu. Konstitusiyada insan və vətəndaş hüquq və azadlıqdarının, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit olunub.

Çıxışına davam edən E. Süleymanova Azərbaycan Konstitusiyasının bir sıra prinsipləri barədə konfrans iştirakçılarına məlumat vermiş, eyni zamand bu mötəbər tədbir BMT-nin və onun ixtisaslaşmış təşkilatı olan UNESCO-nun yubileylərinə də həsr edilib. Beynəlxalq konfranslarda həmçinin dövrun prioritet problemləri müzakirə edilib. Məqsəd isə konstitusion hüquq və azadlıqlarının təmin olunmasında ölkədaxili və beynəlxalq təşkilatların əməkdaşlığının roluna dair müzakirələr və fikir mübadiləsi aparmaqla müsbət təcrübənin öyrənilməsindən ibarətdir.

Konfransda çıxış edın Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov müstəqillik əldə etdikdən sonra Azərbaycanda hüquqi dövlət quruculuğu, demokratik, plüralist cəmiyyətin folrmalaşması, bu gün Azərbaycan müstəqil siyasət yürüdən, demokatik, dinamik inkişaf edən və yüksək beynəlxalq nüfuza malik bir ölkə olmasından, onun sosial-iqtisadi yüksəllişindən, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətindən və digər məsələlərdən danışmışdır.

Konfransda Konstitusiya məhkəməsinin sədri Fərhad Abdullayev, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva çıxış edərək ötən 10 ildə müstəqil Azərbaycanda əldə edilən uğurlardan danışmışlar.

Sonra konfrans plenar iclaslarında işini davam etdirmişdir.

Konfransın sonunda Bakı Bəyannaməsi qəbul olunmuşdur.

**«Qəbələ».**

# Qəbələ Müalicə-Diaqnostika Mərkəzində xidmətin səviyyəsi yüksəlir

Qəbələ Müalicə-Diaqnostika Mərkəzi 2008-ci ildə regionların sosial-iqtisadi inkişafı üzrə birinci Dövlət Proqramı çərçivəsində istifadəyə verilən ən böyük müalicə ocaqlarından biridir. Bu analoqu olmayan mərkəzin açılışında ölkəmizin başçısı cənab İlham Əliyev iştirak etmiş, burada çalışan tibb işçilərinə xeyir-dua vermiş, onlara müraciət edən hər bir insana qayğı və şəfqətlə yanaşmağı arzulamışdır.

Qısa zaman kəsiyində Qəbələ Müalicə-Diaqnostika mərkəzinin şöhrəti ətraf rayonlara da yayıldı. İlk vaxtlar az saylı həkim mütəxəssisləri ilə fəaliyyətə başlayan bu diaqnostika mərkəzinə indi təkcə Qəbələdən deyil, qonşu Oğuzdan, Ağdaşdan, Göyçaydan, İsmayıllıdan, Ağsudan, Zərdabdan, Mingəçevirdən də müayinə və müalicə üçün müraciət edənlər olur. Ən yaxşı haldır ki, burada çalışan həkim və tibb bacıları, xidmət personalı pasientləri doğma adamları kimi qəbul edir, onların tezliklə sağalıb ailələrinə qayıtmasına səy göstərirlər. Hər cür müasir tibbi avadanlıqla təchiz edilmiş, əla şəraiti və yüksək ixtisaslı tibb personalı olan səhiyyə ocağında sağlam psixoloji mühit hökm sürür və bura üz tutan insanlarda həyat eşqini gücləndirmək prinsiplərinin reallaşdırılmasına daim diqqət yetirilir.

Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin işi ilə yaxından tanış olduqda baş həkim Ceyhun Əhmədovun qarşısına qoyduğu məqsədə çatmaq üçün gördüyü işlərin, həyata keçirdiyi tədbirlərin yaxşı bəhrələr verdiyinin şahidi olduq. Son aylarda Müalicə diaqnostika bölmələrinin göstəricilərinin artım dinamikası da bunu təsdiqləyir. Baş həkimin dediynə görə cari ilin 9 ayı ərzində mərkəzə bütövlükdə üz tutanların sayı xeyli çoxalmışdır. Məsələn, konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərin sayı 15123 nəfərə, aparılmış cərrahiyyə əməliyyatların sayı 662 nəfərə çatmışdır. Bu da əvvəlki illərdəkindən xeyli çoxdur.

Geniş ərazidə yerləşən dördmərtəbəli mərkəz inzibati şöbədən, konsultativ poliklinikadan, stasionar qəbul, cərrahiyyə, şüa-diaqnostika, fizioterapiya, dializ, anesteziologiya və reanimasiya şöbələrindən, müasir laboratoriyadan, əməliyyat və ümumi sterilizasiya bloklarından, digər yardımçı binalardan ibarətdir. Səhiyyə Nazirliyi tibb ocağının kifayət qədər maliyyə vəsaiti, müasir avadanlıqla təmin edilməsi üçün köməyini əsirgəmir. Bura baş həkim təyin edildikdən sonra mərkəzin tibb işçiləri arasında nizam-intizam xeyli möhkəmləndirilmiş, xəstələrin qəbuluna, onların müalicəsinin təyin olunmasına diqqət artırılmışdır. Əməliyyatların fəsadsız keçməsi, göstərilən müalicənin səmərə verməsi üçün bütün mümkün tədbirlər görülür. Elə buna görə bu müalicə ocağına müraciət edənlərin sayı günəbəgün, aybaay artır.

Qəbələ Müalicə-Diaqnostika Mərkəzində öz işini yaxşı bilən, xəstələrə həssasalıqla yanaşan həkim və tibb işçiləri çoxdur. Belə həkimlərdən bir də cərrah Zahid Tahirovdur. Onun uğurlu əməliyyatlarının sayəsində çox saylı xəstələr şəfa tapmış, həyata sağlam nəfəslə qayıtmışdır.

Müalicə-Diaqnostika Mərkəzinin kollektivi milli və tarixi bayram günlərinin, həmçinin tarixi şəxsiyyətlərin anadan olan günlərinin keçirilməsinə xüsusi önəm verir. Burda keçirilən yeni il, Novruz bayramı şənlikləri daha təntənəli qeyd edilir. Onlar hər il dahi şəxsiyyət Heydər Əliyevin, görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın anadan olan günlərində onların abidələrini ziyarət edir, abidələrin önünə gül dəstələri qoyaraq, əziz xatirələrini hörmətlə yad edirlər.

**Aslan CƏLİLOV.**

# Şəhər sakinlərinin müraciət və tələbləri müsbət həll edilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirir. Qəbul zamanı hər bir vətəndaşı diqqətlə dinləyərək onların bəzi müraciətləri yerindəcə həll edilir. Nazirliyin və Komitə sədrlərinin səlahiyyətlərinə aid olmayan müraciətlər isə müvafiq dövlət qurumlarına çatdırmaq üçün qeydiyyata alınır və nəzarətə götürülür. Vətəndaşlar bölgələrdə bu cür qəbulların keçirilməsinin, onların rahatlığının təmin olunmasının təşəbbüsçüsü olan Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirirlər. Bundan əlavə ölkə başçısı ümumrespublika tədbirlərinin hamısında vətəndaşların qəbulunu yaxşılaşdırmaq, onların hər bir şikayət və müraciətinə vaxtında və obyektiv baxılmasını təmin etməyi icra orqanlarına dönədönə tapşırır və tövsiyə edir. Ölkəmizin tarixində uğurlu və əlamətdar hadisələrlə zəngin olan son illər ərzində Qəbələ şəhər sakinlərinin rahatlığına xidmət edən kompleks işlər görülmüş, sosial problemlərin həllinə xüsusi diqqət yetirilmişdir. Rayon icra hakimiyyətinin köməkliyi ilə şəhərin sosial-iqtisadi inkişaf yolunda atılan addımlar və real vəziyyət sakinlər tərəfindən rəğbətlə qarşılanır.

Son vaxtlar Prezidentin tapşırıq və göstərişlərinə uyğun olaraq Qəbələ Şəhər İnzibati Ərazi Nümayəndəliyində vətəndaşların qəbulu məsələsinə, onların qaldırdıqları hər bir problemə diqqətlə yanaşılır, daxil olan məktub və ərizələrdə qaldırılan məsələlər operativ araşdırılır, lazımi qərarlar çıxarılır, konkret tədbirlər görülür.

Yay mövsümündə şəhər sakinlərinin haqlı narazılığına səbəb olan amillərdən biri içməli suyun verilməsində müşahidə edilən çatışmazlıqlardır. Bu barədə şəhər nümayəndəliyinə vətəndaşlardan xeyli sayda həm şifahi, həm də yazılı müraciətlər daxil olur. Şəhər nümayəndəliyi müraciətləri yerində araşdırır, müvafiq tədbirlər həyata keçirməklə şikayətçilərin tələblərini müsbət həll etmişdir.

Qeyd edək ki, daxil olan məktub və ərizələrdə qaldırılan məsələlərin əksəriyyəti qonşuluq münasibətlərinin pozulmasına, yol-torpaq mübahisələrinə aiddir. Bu xarakterdə yazılan hər bir ərizə və müraciətlər şəhər nümayəndəliyi tərəfindən yerində araşdırılır, şikayətin doğru olub-olmaması müəyyənləşdirilir və obyektiv qaydada məsələ həllini tapır. Şəhər sakinləri Əzimov Rakif Əziz oğlu, Salehov Yavər Əhmədiyyə oğlu, Qafarov Əjdər Səhrab oğlu, Seyidov Sarvan Nəcməddin oğlu şəhər nümayəndəliyinə müxtəlif məzmunda həm şifahi, həm də yazılı müraciətlər etmişlər. Araşdırma zamanı məlum olmuşdur ki, onların qaldırdıqları məsələlər haqlıdır və şəhər ərazi nümayəndəliyi mövcud qanunlara uyğun qaydada onların tələb və xahişlərini yerində araşdırmış, xahişlərini yerinə yetirmişdir.

Şəhər nümayəndəliyində vətənldaşların qəbulu qrafik əsasında aparılır, onların şifahi müraciət və təklifləri qeydiyyata alınır, ədalətli qaydada həll edilir. On ay ərzində inzibati ərazi nümayəndəliyinə 18 yazılı ərizə daxil olmuşdur. Ərizələrin 12-si müsbət həll edilmiş, 3-ü əsassız sayılıb, qalanları isə tədbirlər görmək üçün əlaqədar orqanlara göndərilmişdir.

Şəhərdə sakinləri narahat edən digər məsələlərin vaxtında həllinə də xüsusi əhəmiyyət verilir. Belə ki, sahibsiz itlərin məhv edilməsinə, məişət tullantıllarının daşınmasının daha operativ təşkili, şəhərdə səliqəsahman yaradılması məsələlərinə daim diqqət yetirilir. Nümunəvi həyətlərin və məhəllədaxili istirahət yerlərinin yaradılmasında görülən işlərə baxışlar keçirilir və görülən bu tədbirlər şəhər sakinlərinin ürəyincə olur.

Bir sözlə, Qəbələ şəhər inzibati ərazi nümayəndəliyi daim şəhər əhalisi ilə sıx əlaqə saxlayır, onların qaldırdıqları məsələlərə qayğı və diqqətlə yanaşır.

**A. CƏLALOĞLU.**